*Xəyalə BÜNYATOVA*

# KLASSİK JURNALİST VƏ PUBLİSİSTLƏRİN YARADICILIĞINDA VƏTƏNPƏRVƏRLİK TEMATİKASI


## РЕЗЮМЕ

Статья посвящена изучению потриотического воспитания в медиасистеме Азервайджане. В материале используемся опыт и традиции в освещение патриотизма в классической Азербайджанской журналистике. Из исследование становиться что в начале XX века к проблеме патриотического воспитание особое внимание уделяли такие корифеи Азербайджанской журналистики как Дж.Мамедгулузаде, У.Гаджибеков, М.А.Расулзаде, Н.Нариманов и другие видные деятели того времени.


***Ключевые слова:*** патриотизм, печать, публицистика, профессиональное мастерство.

## SUMMARY

The article focuses on the issue of journalism's patriotism in the media system. The expression of his problem in classic Azerbaijan journalism, how our modern publicists benefit from these traditions is investigating. It is known from the research that the press of the early XX century and its professional journalists – J.Mammadguluzade, U.Hajibeyli, M.A.Rasulzadeh, N.Narimanov and others have created a special school on this subject.

***Key words***: patriotism, press, tematics, publicity, professionalism

Çağdaş jurnalistikamızda hər şey ənənədən gəlir və ənənəyə bağlıdır. Azərbaycan mətbuatı yarandığı dövrdən jurnalistikanın bir sıra elə prinsiplərini, elə yaradacılıq məqamlarını gündəmə gətirmişdir ki, bu prinsiplər müasir jurnalistikamızın da söykəndiyi, pənah gətirdiyi dəyərlərdir. Həmin sırada mətbuatın maarifçilik vəzifəsi öndə dayanır.

Böyük jurnalistimiz Həsən bəy Zərdabi ilk milli mətbuatımızın mükəmməl nümunəsini yaradarkən bu qəzetin maarifçilik missiyasını ilk sırada görürdü. Təsadüfi deyil ki, mətbuat tariximizin tədqiqində xüsusi məktəb yaratmış böyük müəllimimiz professor Şirməmməd Hüseynov hələ müstəqilliyimizin lap ilk illərdində mətbuat və söz azadlığına qovuşmuş jurnalistlərə "Əkinçi"dən öyrənməyi tövsiyə edirdi: "Respublikamızın jurnalist ordusu, hər bir redaksiya kollektivi, hər bir qələm sahibi jurnalistikamızın "Əkinçi" ilə başlayan tarixi keçmişinə, qüdrətli jurnalist və publisistlərimizin yaradıcılığına, bir sözlə, keçdiyimiz yola varislik hissi ilə nəzər salmalı, bu günün və gələcəyin yolunu, vəzifələrini müəyyənləşdirməlidir" [2, s.110].

Bu gün yeni müstəqillik dövrümüzün jurnalistləri peşənin klassik ənənələrinə qayıtmaq təşəbbüsü ilə fəaliyyət göstərirlər. Lakin heç də həmişə belə olmayıb. Sovet dövrü jurnalistikası və sovet-kommunist ideoloji tələbləri çərçivəsində fəaliyyət zamanı klassik publisistlərimizin yaradıcılığına, xüsusilə onların vətənpərvərlik ideyaları ilə zəngin irsinə bələd olmaq imkanı əldən alınmışdır. Təsadüfi deyil ki, böyük şairimiz Bəxtiyar Vahabzadə yazırdı: "Təəssüflər olsun ki, əsrimizin əvvəllərində bizim böyük qələm sahiblərimizin görüb yazdıqlarından biz əsrin sonunda nəticə çıxara bilməmişik, eyni tora yenidən düşmüşük. Çünki böyüklərimizin vaxtilə yazıb miras qoyduqlarını bizə vaxtında çatdırmamış, tarixi yaddaşlarımızı unutdurmuşlar" [8, s.4].

Professor Cahangir Məmmədli yazır: "Azərbaycanın klassik ziyalıları xalqı öz hüquqları uğrunda mübarizəyə səsləmək, vətənpərvər olmaq, milli özünüdərk və azərbaycançılıq ideyalarını təbliğ etmək, imperiya basqılarının ən ağır çağlarında belə əsrlərdən süzülüb gələn milli-mənəvi dəyərlər sistemini zənginləşdirmək və onu qoruyub nəsillərə çatdırmaq işində ədəbi yaradıcılığın bütün növlərindən istifadə etmişlər" [5, s.4].

XX əsrin əvvələrində ciddi publisistikamızın mövzuları sırasında vətən sevgisi, millətin inkişafı ön sırada olmuşdur. Azərbaycanın Cəlil Məmməd-

quluzadə, Üzeyir Hacıbəyli, Məhəmməd Əmin Rəsulzadə, Ömər Faiq Nemanzadə, Nəriman Nərimanov və başqa yaradıcı ziyalıları bir sıra hallarda çar senzurasının dəmir qadağalarını da keçə bilmək cəsarəti göstərərək vətənpərvərlik, milli dirilik mövzularını gündəmdə saxlamışlar. Əslində milli dilin qorunması, yadların təsirinə düşməmək, millәti maarifləndirmək kimi məsələlər də dolayı yolla vətənpərvərlik duyğularını ifadə edir. Bu mənada, məsələn, C.Məmmədquluzadə hələ XX əsrin əvvəllərində doğma dilimizin təhlükədə, yad təsirlərə məruz qalmaqda olduğunu, erməni xislətinin bir gün Azərbaycanı faciələrə gətirib çıxaracağını, imperiya siyasətinin milli zərbələr hazırladığını özünün "Azərbaycan" manifestində, "Bizim obrazovannılar", "Axund ilə keşişin vəzi" felyatonlarında bildirmişdir. Ü.Hacıbəyli vətənpərvərliyi təbliğ edən "Nəyimizin vaxtıdır", "Təəssürat", "Fitnələr qarşısında", "Düşmənlərimizin fəaliyyəti", "Qarabağ haqqında" kimi onlarla publisistik əsərlərində mühüm maarifçilik işi görmüşdür. Böyük maarifçi Ö.F.Nemanzadənin "Dərdimiz və dərmanımız", "Köməkləşəlim", "Millətpərəstlik zamanıdır", "Məzlum ən böyük zalımdır" kimi əsərləri XX əsrin əvvəlrində xalqa vətən, millət sevgisi aşılayan publisistikanın bariz nümunələridir. Bizim o dövrün publisistləri nəinki Azərbaycanı demokratik, müstəqil bir ölkə kimi görmək istəyir, habelə Rusiyanı da bu yolla getməyə çağırırdılar. M.Ə.Rəsulzadə özünün "Cümhuriyyət" adlı məqaləsində 1917-ci ildə bolşeviklərin qələbəsi ilə nəticələnən sosialist inqilabının xalqa heç bir demokratiya vermədiyini dilə gətirərək yazırdı: "Demokratiya nöqteyi- nəzərindən Rusiyada yaşayan və çarizmin təcavüzkar siyasətinə məruz qalan sinif, silk və millətlər üçün cümhuriyyətdən daha münasib bir üsuli-idarə təsəvvür olunmaz" [7, s. 89].

Belə bir fikrin sahibi 1918-ci il mayın 28-də elan olunan Azərbaycan Xalq Cümhuriyyətinin məhz demokratik əsaslarla fəaliyyətini təmin etdi.

M.Ə.Rəsulzadənin publisist yaradıcılığını və dövlət quruculuğu işindəki xidmətlərini xüsusi bir məqalədə ortaya qoyan Mirzə Bala Məmmədzadə yazırdı: "Qafqazın Rusiyadan ayrılıb istiqlalını elan etməsi və Azərbaycan, Şimali Qafqaz, Gürcüstan və Ermənistandsan ibarət bir konfederasiya qurması üçün 1918-ci ilin fevral, mart, aprel aylarında Zaqafqaziya parlamentində söylədiyi nitqlər tarixi və siyasi dəyərlərini heç bir zaman itirməyəcəkdir" [6, s.10]. Həqiqətən də M.Ə.Rəsulzadənin publisistikası bu gün Azərbaycan jurnalistlərinin öyrənmə yeri kimi çox qiymətlidir.

N.Nərimanovun "Göz yaşı tökdürən cəzirə", "Həftə fəryadı" kimi məqalələri vətənpərvər insanların müdafiəsinə həsr edilmişdir.

Azərbaycan jurnalistikası və ədəbiyyatında "Molla Nəsrəddin ədəbi məktəbi" kimi möhtəşəm bir ifadə var. Bu məktəbin yaradıcıları C.Məmmədquluzadə, Ö.F.Nemanzadə, Ü.Hacıbəyli, Ə.Haqverdiyev, Y.V.Çəmənzəminli və digər ziyalılarımız jurnalın ətrafında toplaşaraq xalqa vətənpərvəlik hissləri aşılamışlar. Onların hamısının çox böyük publisist yaradıcılığı var.

Mətbuat tariximizin tədqiqatçısı professor Şamil Qurbanov Ö.F.Nemanzadəni oxucuya belə təqdim edir: "Ömər Faiq Nemanzadə kim idi? Bu suala cavab

vermək və onun kim olduğunu təsəvvür etmək üçün təkcə "Molla Nəsrəddin" jurnalının fəaliyyəti ilə tanış olmaq kifayətdir. Azərbaycan xalqında vətənpərvərlik ruhunun, ictimai şüurun oyanmasında heç bir mətbuat orqanı bu jurnal qədər geniş təsir gücünə malik olmamışdır" [3, s.6].

"Molla Nəsrəddin" jurnalının yaradıcılarından biri olan Ö.F.Nemanzadə fəal jurnalist olmuşdur. Onun milli dilimizin saflığı uğrunda mübarizəyə dair silsilə yazıları var. O, "Eşq və məhəbbət" sərlövhəli məqaləsində yazırdı: " Millətimizi sevmək üçün ilk növbədə dilimizi sevməliyik. Həm də eşq və məhəbblətlə sevməliyik ki, heç bir şey ona əngəl ola bilməsin. Məhəbbətimizin ən üst qatına dil məhəbbətini çıxarmalıyıq. Dil məhəbbətini vətən və millət məhəbbətinin başlanğıcı bilək. Dilimizə ən dərin eşq və məhəbbətlə sarılaq" [3, s.63]. Müəllifin dil sevgisinə bu çağırışını vətən sevgisinə çağırış kimi qəbul etmək olar. Çünki biz dilimizə "ana dili" deyirik, vətənimizə isə "ana vətən" epiteti yaraşdırırıq.

Bütövlükdə "Molla Nəsrəddin" dərgisi Azərbaycanda və türk-müsəlman dünyasında milli azadlıq, müstəqillik, vətən sevgisi uğrunda mübarizənin ədəbiyyatda və mətbuatdakı sərkərdəsidir. Bu jurnal dövlətçilik uğrundakı istiqlal davasının əsas hərəkətverici qüvvələrindən biridir [1, s.634]. Jurnalın bu səviyyəsi onun müəllifləri ilə bağlıdır ki, bunlardan ən barizi Ö.F.Nemanzadədir.

Klassik publisistikamızın bütün mövzulara, o cümlədən vətənpərvərlik kimi müqəddəs bir mövzuya müraciətində jurnalistlərlə bərabər yazıçılar da çox ciddi rol oynamışlar. Yazıçı publisistikası adlandırılan bu növ publisistika bədii keyfiyyəti ilə də duyğulara təsir edir. Çünki "bədii publisistika yaradıcılığın çox gərəkli bir növüdür və yaradıcılığa meyli güclü olan xalqların hamısında özünü göstərməkdədir" [4, s.371]. Ə.Haqverdiyivin, C.Məmmədquluzadənin publisistik yaradıcılığı bu fikri sübut etməkdədir. Rusiyanın XIX əsr ziyalıları – A.Çertsen, N.Çernışevski, F.Dostoyevski, S.Şedrin və s. kimi ustad yazıçıları bədii publisistikadan yeri gəldikcə istifadə etmişlər.

Azərbaycan ədəbi-bədii fikir dünyası öz publisistikası, habelə bədii publisistikası ilə çox ciddi vətənpərvərlik tərbiyəsi aşılamışdır. Və bütün bu jurnalist, publisist və yazıçıların klassik yaradıcılığı müasir jurnalistlərimizin vətənpərvərlik mövzusunu işıqlandırmaq fəaliyyətində sönməz məşəl rolunu oynamaqdadır.

Araşdırma göstərir ki, vətən sevgisi, vətənpərvərlik mövzusu ilə bağlı klassik publisistikamız XX əsrin əvvəllərindəki sənətkarlıq səviyyəsilə heyrət doğurur. Həmin dövrdə Azərbaycanda baş verən ictimai-siyasi hadisələr, milli özünüdərk prosesinin güclənməsi, azərbaycançılıq ideyalarının qabardılması publisistikanın vətənpərvərliklə bağlı həm mövzu dairəsini, həm də mövzunun peşəkarlıqla işlənməsini yüksəkliklərə qaldırdı. C.Məmmədlinin göstərdiyi kimi, o vaxtlar Bağçasarayda "Tərcüman" qəzetinin naşiri və baş redaktoru İsmayıl bəy Qaspiralı Ə.Hüseynzadənin ona göndərdiyi "Həyat" qəzetinin cildlənmiş nömrələrini alıb öz fikrini belə ifadə edir: "Əziz qardaşım, mənə

"Həyatın hamisi" demişsən. Gözəl, amma bu sözün təfsiri hacətlidir. "Həyat"ın hamiyi-həqiqisi millətdir. Mən yalnız onun "Tərcüman"ıyam. Millət sənə daim hamidir. Fəqət, yeganə şərtini unutma - hər nə yazacaq isən, qələmi üç qəpiklik qara mürəkkəbə batırma, ürəyinə batırıb qanı ilə yazı yaz. Sözün ötər, vicdanlar yetər. Əks halda bisəmərə gələr, keçər gedər" [5, s.7-8]. Qaspiralının Ə.Hüseynzadəyə bu "ricası", bu "məsləhəti və bu vəsiyyəti" XX əsrin əvvələri Azərbaycan publisistlərinin kredosuna çevrilmişdir. Ə.Hüseynzadə özünün "Kaspi", "Həyat", "Füyuzat", "İrşad", "Tərəqqi" qəzetlərindəki publisistika nümunələrini məhz "ürəyinin qanı" ilə yazmışdır" [5, s.8].

Uzun müddət bizdən gizlədilmiş bu yazılar yeni müstəqillik çağında mətbuat tarixçilərimiz tərəfindən toplanıb nəşr edilib. Müasir peşəkar publisistlərimiz xüsusilə Vətən və vətənpərvərlik mövzusunda yazılarını bu ənələrə hörmət və məhəbbətlə qələmə almaqdadırlar.

## ƏDƏBİYYAT


1. Həbibbəyli İ. Ədəbi-tarixi yaddaş və müasirlik. Bakı, "Nurlan" nəşriyyatı, 2007, 696 s.
2. Hüseynov Ş. "Müstəqilliyimizin çətin yolu... reallıqlar, düşüncələr". Bakı, "Elm" nəşriyyatı, 2009, 540 s.
3. Qurbanov Ş. "Ömər Faiq Nemanzadə", Bakı, "Gənclik" nəşriyyatı, 1992, 208 s.
4. Məmmədli C. Jurnalistikanın nəzəriyyəsi və təcrübəsi. "Zərdabi LTD" nəşriyyatı, Bakı, 1912, 656 s.
5. Məmmədli C. "Klassik publisistikamız: dünənin, bu günün və sabahın sənət örnəyi. "Azərbaycan publisistikası antologiyası"na ön söz. Bakı, "Şərq-Qərb" nəşriyyatı, 2007, səh.3-10
6. Məmmədzadə M.B. "Məhəmməd Əmin Rəsulzadə". M.Ə.Rəsulzadənin seçilmiş əsərlərinin I cildində ön söz. Azərnəşr, 1992, 470 s.
7. Rəsulzadə M.Ə. Əsərləri – 1917 aprel 1918. Bakı, "Qanun" nəşriyyatı, 2013, 456s.
8. Vahabzadə B. "Öz gözü ilə görüb, öz ağlı ilə düşünmək". Ş.Hüseynovun "Müstəqilliyimizin çətin yolu..." kitabı. Ön söz. Bakı, Elm, 2009, səh.3-5


***Elmi rəhbər:dos. Rəhilə Kəsəmənli***